# "YAŞAT" Fondunun yaradılmasından 3 il ötür




Bu gün "YAŞAT" Fondunun yaradılmasından üç il keçir. "YAŞAT" Fondu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə yaradılıb.

Fondun əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsidir.

AZƏRTAC xəbər verir ki, fondun yaradılmasının 3 illiyi münasibətilə dekabrın 8-də mətbuat konfransı təşkil olunub. Fondun 3 illik fəaliyyətinə dair videoçarx nümayiş etdirilib. "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov hesabat xarakterli təqdimatla çıxış edib.

Təqdimatda "YAŞAT" Fondu tərəfindən müvafiq istiqamətlərdə şəhidlərimizin ailə üzvləri və yaralılarımız üçün həyata keçirilən dəstək tədbirləri, reallaşdırılan layihələrə dair statistik məlumatlar əks olunub.

Qeyd olunub ki, bu günədək fondun büdcəsindən 79 milyon 484 min 43 manat 94 qəpik vəsait xərclənib.

Fondun əməkdaşları 3 min 4 şəhidin ailə üzvləri, habelə 6 min 568 yaralı olmaqla ümumilikdə 17 min 861 şəxslə görüşüb, onların ehtiyaclarını qeydə alıblar (yashat.gov.az saytında). 14 min 785 şəxsin 46 min 868 müraciəti icra üçün öhdəliyə götürülüb. Reallaşmış ödəniş sayı 43 min 69-dur.

Fonda toplanan vəsaitdən məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə 42 milyon 153 min 250 manat, təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri üzrə 2 milyon 424 min 635 manat 3 qəpik, istehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması istiqaməti üzrə 7 milyon 11 min 408 manat 82 qəpik, müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi üzrə 27 milyon 394 min 750 manat 9 qəpik xərclənib.

Məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə şəhid ailə üzvlərinin 5 min 536 , itkin ailə üzvlərinin 7 və yaralıların 7 min 33 müraciəti olmaqla, ümumilikdə 12 min 576 müraciət təmin edilib.

Təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə şəhid ailə üzvlərinin 532 və yaralıların 171 müraciəti olmaqla, ümumilikdə 703 müraciət təmin olunub. Fondun təşəbbüsü ilə təhsilhaqqı üzrə təhsil müəssisələri tərəfindən 495 min 845 manat 99 qəpik vəsait qarşılanıb. Təhsilhaqqı üzrə 588 müraciət fond tərəfindən, 115 müraciət isə fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən qarşılanıb (orta və ali təhsil müəssisələri və təlim-tədris mərkəzləri).

Müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə şəhid ailə üzvlərinin 16 min 406, itkin ailə üzvlərinin 6 və yaralıların 11 min 30 müraciəti olmaqla, ümumilikdə 27 min 442 müraciət təmin edilib. Ümumilikdə 185 şəxs müalicə edilməsi məqsədilə Türkiyə Respublikasına göndərilmiş, onlardan 178-si ağır yaralı, 7-si isə şəhid ailəsi üzvüdür. Müalicə alanlardan 160-ı ölkəyə geri qayıdıb. Hazırda 5 ağır yaralının müalicəsi Türkiyədə davam edir.

İstehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması istiqaməti üzrə şəhid ailə üzvlərinin 918, itkin ailə üzvlərinin 3 və yaralıların 1 379 müraciəti olmaqla, ümumilikdə 2 min 300 müraciət təmin edilib. Əlavə olaraq fondun təşəbbüsü ilə borc öhdəliyinin qarşılanması üzrə müəssisələr tərəfindən 126 min 392 manat 73 qəpik borc ləğv edilib.

E.Hüseynov, həmçinin fond tərəfindən həyata keçirilən layihələr barədə də məlumat verib.

"YAŞAT" Fondunun hesabatları və xərclənən vəsaitlərlə bağlı ətraflı məlumatı yashat.gov.az rəsmi internet saytının Hesabatlar **(https://yashat.gov.az/report/tableau)** bölməsindən əldə etmək mümkündür.

Azərbaycan.- 2023.- 9 dekabr, № 269.- S.4.